# ƏL AĞACI

*Gülarə MUNİS,*
*AYB və AJB üzvü*



Əsa, yoxsa əl ağacı? Hansı dəqiq ifadədir? Əl ağacı, yəni əldə gəzdirilən ağac.

Əslində, bu qoca vaxtı insana dayaq olan bir vasitədir.

Bəs niyə ona əl ağacı deyirlər? Görəsən ömründə bir ağac da olsa əkməyən adam əlində əsa gəzdirəndə ondan utanırmı?

Əl ağacı qocanın üçüncü ayağıdır, insanı yıxılmaqdan qoruyur. Necə ki, Süleyman Peyğəmbəri yıxılmaqdan qorudu. Axırda balaca bir qurd əl ağacına qalib gəlib, Süleyman peyğəmbəri yerə yıxdı.

Uzun illər sahibinin əlində gəzən ağac sahibini itirəndə gərəksiz bir əşyaya çevrilir. O gözdən-nəzərdən düşür. Sahibi üçün qəribsəyir. Bəzən onu əziz xatirə, yadigar kimi saxlayır, bəzən də sahibinin üçü verilməmiş əl ağacını zibilliyə atırlar. Əl ağacı sahibinin əlinin hərarəti üçün darıxır. Görəsən əl ağacı sahibi üçün göz yaşı tökürmü. Yaxşı ki, əl ağacı ağlamır, yoxsa rütubətdən cücərib yarpaq açardı, əl ağacı...

Əl ağacı, əsa sahibi ilə birlikdə ölür. Onu daha heç kim gəzdirmir.

Axı ağac yerdən üzüləndə ölür, əl ağacı da yerə toxunmadığı üçün ölür...

***2022***

Kredo.- 2022- ci il.- 10 avqust.- S. 16.